# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

# ƏMR

**№ 109** **23.12.2021-ci il**

**"İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Dövlət Standartının hazırlanması məqsədi ilə işçi qrupun yaradılması barədə"**

Birləşmiş Millətlər Təşkilatının "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasının "Su və Sağlamlıq Protokolu"na əsasən Azərbaycan Respublikasının Məqsədli Göstəriciləri rəsmi qəbul edilmişdir.

Hazırda Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə Məqsədli Göstəricilərdə qeyd edilən "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartının hazırlanması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartının hazırlanması üzrə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

| | |
|---|---|
| - Leylaxanım Tağızadə | Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Kommunal-gigiyena bölməsi üzrə məsləhətçisi, BMT-nin Su və Sağlamlıq protokolu üzrə milli əlaqələndirici |
| - Mütəllim Əbdülhəsənov | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Ehtiyatlarının İdarə edilməsi şöbəsinin müdiri və Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi üzrə Milli Siyasi Dialoqun Rəhbər Komitəsinin Sədri |
| - Günel Qurbanova | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "AzeLab" MMC-nin baş bioloqu |
| - Bayram Əliyev | "Azərbaycan Standartlaşdırma İnstitutu"nun Aqrar və qida sənayesinin standartlaşdırma şöbəsinin müdiri |
| - Cəmil Babayev | "AZƏRSU" ASC-nin Texnoloji proseslərə nəzarət, suyun təhlükəsizliyi və ekologiya şöbəsinin rəisi |
| - Elçin Əliyev | "AZƏRSU" ASC-nin Mərkəzi Laboratoriyasının müdiri |

- Məhəmməd Abduyev — Azərbaycan Milli Elmlər Akademiyası. Akademik H.Əliyev adına Coğrafiya İnstitutu, Coğrafiya üzrə elmlər doktoru

2. İşçi qrupuna tapşırılsın ki, "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartını 2022-ci ilin aprel ayına kimi hazırlayıb, qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq qurumlarla razılaşdırıldıqdan sonra təsdiq edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu"na təqdim edilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Viktor Qasımova həvalə olunsun.

**Nazirin birinci müavini,**
**səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən** **Teymur Musayev**

Əsli ilə düzdür